**UOT 76**

**Sevinc Əliyeva**
**Bakı Xoreoqrafiya Akademiyası**
**müəllim**
**E-mail: eliyevasevinc88@mail.ru**

# XALQ RƏSSAMI MARAL RƏHMANZADƏNİN YARADICILIĞINDA QADIN OBRAZI

**Xülasə**: Məqalə görkəmli Azərbaycan rəssamı Maral Rəhmanzadənin yaradıcılığında qadın obrazına həsr olunmuşdur. Müəllif qeyd edir ki, onun yaradıcılığında qadın obrazı mühüm yer tutur. Məqalədə rəssamın yaradıcılığı erkən, orta və yetkin dövrlərə bölünmüş, bu dövrlərin hər birində qadın obrazının təkamülü və inkişaf xüsusiyyətləri əks edilib. Rəssamın yaradıcılığında qadın obrazı əmək mövzusu, xüsusən kənd təsərrüfatı əməyi ilə birbaşa əlaqədardır. Bir sıra kompozisiyalar üçün məişət lövhələri, dekorativlik, parlaq surətdə əks olunmuş milli xarakter səciyyəvidir. Rəssamın qəhrəmanları milli qadın geyimində, əmək və ya istirahət prosesində təsvir olunmuşlar. Bir çox rəsmlər ağ-qara qrafikada işlənmişdir, lakin rəngli işlər, əsasən linoqravüralar da vardır. Azərbaycanın görkəmli şairələrinin – Məhsəti Gəncəvinin, Natəvanın, Heyran xanımın obrazlarının əks olunduğu əsərlər seriyası maraqlıdır. Bu, əsasən onların müxtəlif illərdə nəşr olunmuş kitablarına çəkilən illüstrasiyalardır.

**Açar sözlər**: Maral Rəhmanzadə, incəsənətdə qadın obrazı, Azərbaycan təsviri sənəti, qrafika, rəngkarlıq, linoqravüra.

XX əsr Azərbaycan təsviri sənəti zəngin inkişaf yolu keçmişdir. Öz tarixi inkişafında Qobustan və Gəmiqaya təsvirlərinə, Təbriz və Qəzvin miniatürlərinə, XVIII-XIX əsrlər xalq yaradıcılığına istinad edən Azərbaycan incəsənəti XX əsrdə peşəkar səviyyəyə qədəm qoymuş, akademik sənətin zirvəsinə yüksəlmişdir.

XX əsr Azərbaycan incəsənətində müxtəlif mövzular mövcud olmuşdur. Onlardan biri də qadın mövzusudur. Rəssamlarımız qadın obrazına ülvi hisslərlə yanaşmış, onun timsalında Tomrisləri, Nigarları, Həcərləri görmüş, sədaqətli, vəfalı, nəcib qadın surətləri yaratmışlar. Azərbaycan təsviri sənətində qadın surəti hər şeydən öncə cəfakeş ana, vəfalı ömür-gün yoldaşı, zəhmətkeş insan, həssas qəlbli, kövrək duyğulu ülvi bir şəxsiyyətdir. Zaman dəyişdikcə incəsənətdə qadın obrazı təkmilləşmiş, yeni keyfiyyətlər, məna çalarları kəsb etmişdir. Qəzənfər Xalıqovun, İsmayıl Axundovun Nizaminin "Xosrov və Şirin", "İsgəndərnamə" poemalarına çəkdiyi Şirin, Nüşabə surətləri, Reyhan Topçubaşovanın yaratdığı balerina Qəmər Almaszadənin portreti, Mikayıl Abdullayevin çəkdiyi Leyli, rəqqasə Əminə Dilbazi, pambıqçı qızlar obrazları, Vəcihə Səmədovanın

müəllifi olduğu aktrisa Leyla Bədirbəylinin portreti, Elmira Şahtaxtinskayanın teatrşünas və cavidşünas-alim Turan Cavid, Nəcəfqulu İsmayılovun Natəvan, Altay Hacıyevin Sara xatun obrazları, həmçinin Böyükağa Mirzəzadə, Oqtay Sadıqzadə, Vidadi Nərimanbəyov, Kamal Əhməd, Arif Hüseynov, Qəyyur Yunus, Elşən Hacızadə, Sirus Mirzəzadə və bir çox başqalarının çəkdiyi müxtəlif xarakterli qız-gəlin təsvirləri Azərbaycan incəsənətində qadın obrazının mükəmməl nümunələri cərgəsindədir.

Göründüyü kimi, qadın obrazına Azərbaycanın bir çox tanınmış rəssamları müraciət etmişlər. Onlardan biri də istedadlı fırça ustası, Xalq rəssamı Maral Yusif qızı Rəhmanzadədir (1916-2008). İstedadlı qadın rəssamın qrafik irsində qadın mövzusu xüsusi yer tutur. O, həmin mövzuda həm ayrıca rəsmlər, həm də silsilə əsərlər çəkmişdir. “Maral Rəhmanzadənin qadın obrazı qalereyasını zənginləşdirən silsilə əsərlər də mövcuddur. Onlardan “Azərbaycan qadınları” (1962-1963), “Odlar diyarının qızları”, “Bizim qızlarımız” (1971), “Üç çiçək”, “Mənim bacılarım” silsilələrini göstərmək olar” [1, s. 23-24].

M.Rəhmanzadə sənətə ötən əsrin 30-cu illərində gəlmişdir. Həmin illər çox mürəkkəb və ziddiyyətli bir dövr idi. Bir tərəfdən respublikada mədəni-maarif müəssisələrinin, klubların, kitabxanaların sayı artır, rəssamlıq, teatr sənəti inkişaf edir, mədəniyyət təhsili formalaşırdı. Digər tərəfdənsə repressiyalar tüğyan edir, siyasi cəza maşını gecə-gündüz işləyir, Azərbaycan ziyalılarının, mədəniyyət, elm və təhsil xadimlərinin başı üzərində kabus kimi dolaşırdı.

M.Rəhmanzadə qadın obrazlarına hələ o zamanlardan etibarən müraciət etməyə başlamışdı. Rəssamın ötən əsrin 30-40-cı illərində yaratdığı qadın obrazları dövrün tələblərinə uyğun olaraq əsasən ideoloji təbliğat xarakteri daşıyırdı. Onun ilk qrafik rəsmlərində qadın obrazı qadın azadlığı mövzusu ilə sıx bağlı idi. Lakin artıq 40-cı illərin sonlarından etibarən M.Rəhmanzadənin qadın obrazlarında əsaslı məna və məzmun dönüşünün başlanğıcı qoyuldu. Qadın azadlığı mövzusu milli çalarlara malik zəhmətkeş qadın obrazı ilə əvəz edildi.

Əgər M.Rəhmanzadənin yaradıcılığında qadın obrazının inkişaf xüsusiyyətlərini izləsək, üç əsas mərhələni müəyyən edə bilərik: 1) Erkən dövr. Bu dövr əsasən 30-40-cı illəri əhatə edir və tematik baxımdan qadın azadlığı mövzusu ilə əlaqədardır. 2) Orta dövr. Bu dövr əsasən 50-70-ci illəri əhatə edir ki, bu da əmək tematikası ilə bağlıdır. Həmin illərdə rəssam zəhmətkeş qadın obrazları-kənd qızlarının, kolxozçu, neftçi qadınların mükəmməl obrazlarını yaratmışdır. 3) Yetkin dövr. Onun rüşeymləri hələ 60-cı illərdən etibarən özünü büruzə versə də, bu dövrün inkişafı 70-80-ci illərə təsadüf edir. Həmin dövrdə rəssamın əsərlərində əmək mövzusu öz əhəmiyyətini saxlamaqla, milli məişət tematikası, dekorativlik meylləri ön plana keçmişdi [5]. Qeyd edək ki, M.Rəhmanzadənin yaratdığı qadın obrazlarının əsas hissəsini məhz bu qruplar təşkil edir. Bunu da vurğulamaq vacibdir ki, M.Rəhmanzadə bir çox hallarda əməkçi və milli-dekora-

tiv xarakterli surətləri eyni tabloda əks etdirirdi. Belə ki, bu tablolardakı qadınlar əməkçi obrazı olmaqla yanaşı, həm də zəngin milli-məişət motivlərini təcəssüm etdirirlər [4]. “Azərbaycan qadınına xas gözəlliyin, zərifliyin və zəngin mənəvi aləmin rənglərin əlvan dili ilə parlaq ifadəsi Maral Rəhmanzadə yaradıcılığının başlıca xüsusiyyətlərindən biridir. Yaradıcılığının erkən dövründə çəkdiyi dəzgah rəsmləri silsilələrində (“Azərbaycan qadını keçmişdə və indi”, “Qadınlar müharibə illərində”) Azərbaycan qadınlarının həyatı öz əksini tapmışdır. Kənd həyatı, doğma təbiətin təsviri onun rəngli linoqravüra silsilələrinin başlıca mövzusudur (“Bizim qızlar”, “Mənim bacılarım”, “Doğma vətənim”, “Azərbaycan”)” [3].

İstedadlı fırça ustası əsərlərinin əksəriyyətini kağız, yaxud karton üzərində sulu boya ilə işləmiş, bir hissəsini isə kətan üzərində yağlı boya ilə çəkmişdir. Rəssam həmçinin ağ-qara tipli linoqravüralar da yaratmışdır. Bu cəhət onun yaratdığı qadın surətlərinə də aiddir.

Rəssamın “Montajçı qızlar” litoqrafiyası onun yaradıcılığının erkən dövrünə aid olub əmək mövzusunda, 1948-ci ildə çəkilib. Məlum olduğu kimi, həmin dövrdə neft buruqlarının, zavod və fabriklərin təsviri sovet incəsənətində geniş vüsət almışdı. O zaman formalaşmaqda olan bu tendensiya “Sənaye mənzərəsi”, “Sənaye janrı” kimi qəbul edilirdi. Sözü gedən litoqrafiyada zavod görüntüsü, iri ölçülü borular fonunda nisbətən yaxın planda iki əməkçi qız təsvir edilmişdir. Onlardan biri iş prosesində, digəri isə əyləşərək qeydlər apararkən əks olunub. Maraqlıdır ki, rəssam hətta sənaye mövzusunda belə milli xarakteri qoruyub saxlaya bilmişdir. Qızların əynindəki geyim, başlarına bağladıqları yaylıq milli mahiyyəti aydın ifadə edir.

Qeyd olunduğu kimi, bir çox hallarda əmək mövzusu məhz milli məzmun müstəvisində təcəssüm olunur. Bu baxımdan rəssamın 1964-cü ildə işlədiyi “Xalçaçılar. Qonaqkənd” adlı rəsm əsəri diqqət çəkir. Kağız üzərində rəngli pastellə çəkilmiş bu sadə kompozisiyalı rəsmdə hana qarşısında oturaraq xalça toxuyan dörd qadın təsvir olunub. Əsərin yığcam rəng həlli, onun sadə, neytral fonu milli məzmunu pozmur, əksinə, onun daha aydın, lakonik formalarda təcəssüm olunmasına imkan yaradır.

M.Rəhmanzadənin qadın obrazları silsiləsində portret xarakterli rəsmlər də mühüm yer tutur. Rəssam öz yaradıcılığının bütün dövrlərində, xüsusən 60-70-ci illərdə xeyli sayda qadın portretləri yaratmışdır. O, həmin portretlərdə bəzən konkret bir qadının, ananın timsalında Azərbaycan qadınının ümumiləşdirilmiş obrazını yaratmağa çalışmışdır. Məhz buna görə də bu portretlərdə qadının öz adı deyil, əsərin milli ruhunu əks etdirən adlar üstündür. Belə əsərlərdən “Sağıcı qadın. Xınalıq” (1969), “Ana Naxçıvan” (1978) və başqalarını göstərmək olar. Maraqlıdır ki, həmin illərdə rəssam “Azərbaycan qadınları” adlı bütöv bir qrafik seriya yaratmışdır. Milli məzmunlu bu seriyada Azərbaycan qadınlarına xas olan mənəvi dəyərlər özünü çox aydın biruzə verir. Seriyaya daxil olan obrazların

əksəriyyəti portret tiplidir (şəkil 1).

M.Rəhmanzadənin qadın seriyasında kənd əməkçi qadınları mühüm yer tutur. Rəssam əsasən ağ-qara linoqravüralar vasitəsilə əməkçi qadınların incə, lirik hisslərini zəngin milli çalarlarla əks etdirmişdir [2, s. 99-100]. Bu baxımdan rəssamın "İşdən sonra" (70-ci illər), "Laçın" silsiləsinə daxil olan "Dağlı qızlar" (1972), "Quba" silsiləsindən "Zəhmətkeş qız" (1970) linoqravüraları diqqət çəkir. Rəssamın qadın obrazlarının təsvir olunduğu "İstirahət vaxtı" (1985), "Tətildə", "Bazarda" adlı linoqravüralarında məişət motivləri güclüdür. Bu linoqravüralarda bərəkətli Azərbaycan torpağının nemətləri, milli yeməklər, geyim nümunələri qabarıq əks olunub. "Tətildə" rəsmində nəsillərin növbələşməsi, varislik, ənənə və müasirlik münasibətləri rəngarəng ayrıntılara malik məişət müstəvisində əks olunmuşdur.

Zəriflik, incəlik, gözəllik və bunlarla yanaşı zəhmət, əzmkarlıq, qəhrəmanlıq kimi keyfiyyətlər M.Rəhmanzadənin qadın mövzusunun başlıca cəhətləridir. İlk baxışda bir-birinə zidd olan bu xüsusiyyətlər qəribə bir harmoniya ilə rəssamın yaratdığı obrazlarda bir-birini tamamlayır. M.Rəhmanzadə Azərbaycan qadınını həm gözəl, zərif, həm də qüvvətli, zəhmətdən qorxmayan, əməkçi qismində təsvir edir. Əlbəttə, burada sovet dövrünün ideoloji tələblərinin təsirini də görməmək olmaz. Lakin buna baxmayaraq M.Rəhmanzadə obrazları olduqca təbii, həyati müstəvidə təsvir etmiş, əməyi azad, firavan həyat tərzi qismində diqqətə çatdırmış, onu milli xarakter və adət-ənənə ilə əlaqələndirmişdir. Bu baxımdan rəssamın "Tarla sahibələri" linoqravürası diqqət çəkir. Həmin kompozisiyada çiynində kətmən və başqa əmək alətləri saxlayan bir dəstə qadının tarlaya getməsi təsvir edilmişdir. Əsərdə ənənə və müasirlik münasibətləri qabarıq ifadə olunub. Milli geyimli qadınlarının kimisi əlində heybə, kimisi isə o dövrün son texniki nailiyyətlərindən olan radioqəbuledici – tranzistor tutmuşdur. Ənənə və yeniliyin belə bir maraqlı vəhdəti əsərin ideya-bədii xüsusiyyətlərini kifayət qədər dolğun ifadə edir.

M.Rəhmanzadənin qadın mövzusunda yaratdığı seriyalardan biri də "Üç gül" adlanan seriyadır. Bu seriyaya daxil olan rəsmlərdə bir-biri ilə həmahəng görünən üç qız surəti təsvir olunur. Həmin seriyanı şərti olaraq Avropa klassik rəngkarlığında geniş yayılmış "Üç qrasiya" süjeti ilə müqayisə etmək olar. Məlum olduğu kimi, Avropa incəsənətində bu mövzuya rəngkarlıqda Rafael Santi, Piter Paul Rubens, heykəltəraşlıqda Antonio Kanova və başqa görkəmli sənətkarlar müraciət etmişlər. Lakin həmin əsərlərdə qadın gözəlliyinin əsasən zahiri cəhətləri çılpaq fiqur vasitəsilə əks olunursa, M.Rəhmanzadənin "Üç gül" seriyasında Azərbaycan qızlarının həm zahiri gözəlliyi, yəni ay kimi üzü, qara göz-qaşı və saçları, həm də daxili gözəlliyi, zəhmətsevərliyi vəsf edilir. Həmin seriyadakı qızlar, bir qayda olaraq əmək prosesində, üzüm, yaxud çay yarpağı yığarkən, ya da rəqs edərkən təsvir edilmişlər. Ümumiyyətlə, "Üç gül" seriyası bütövlükdə

Azərbaycan təsviri sənətində milli qadın obrazının ən mükəmməl bədii ifadə tapıntılarından biridir. Həmin seriyadan olan "Üzüm yığımı" linoqravürasında üç üzümçü qız əks olunub. Qızların əmək prosesində təsvir edilməsinə baxmayaraq onların zərif, incə hərəkətləri, üzüm dolu səbətləri başına, çiyninə alması, bir-biri ilə əlaqələndirilmiş duruşu ecazkar rəqs effekti yaradır (şəkil 2). Kompozisiya və ideya-estetik məzmun baxımından oxşar xüsusiyyətləri "Məhsul yığımı", "İnsanlar və torpaq" silsiləsindən "Torpağın töhfəsi" və başqa linoqravüralarda da görmək olar.

M.Rəhmanzadə təkcə ağ-qara yox, həm də rəngli linoqravüralar yaratmışdır. Yığcam rəng həllinə malik bu linoqravüralarda əmək, məişət, müasirlik mövzuları milli ənənə kontekstində bir-biri ilə qovuşur. Rəssamın müxtəlif dövrlərdə işlədiyi rəngli linoqravüralara misal olaraq "Rəfiqələr", Günəşin şirəsi", "Qəzet oxuyanlar" və başqalarını göstərmək olar. "Günəşin şirəsi" linoqravürasında incə və cəld hərəkətlərlə üzün yığan üç qız təsvir edilib. Qızlar bərəkətli Azərbaycan torpağında yetişən, günəşdən güc alaraq şirəyə dolan iri üzüm salxımlarını ehtiyatla dərərək uzunsov formalı səbətlərə yığırlar. İstər-istəməz qulaqlarda nəğməkar şair İslam Səfərlinin yazdığı və səsi daim yaşar müğənni Gülağa Məmmədovun oxuduğu mahnı səslənir:

*Günəşin zəri,*
*Bakının cövhəri,*
*Abşeron nabatı,*
*Bağların şəkəri.*

M.Rəhmanzadənin qadın mövzusunda yaratdığı ən dəyərli silsilələrdən biri də "Azərbaycanın aşıq və şairə qadınları" seriyasıdır. Rəssam bu seriya üzrə onlarla linoqravüra, litoqrafik vərəqələr işləmiş, qadın şair və aşıqların kitablarına maraqlı illüstrasiyalar yaratmışdır. Bu sırada Məhsəti Gəncəvi, Heyran xanım, Ağabəyim ağa, Natəvan, aşıq Pəri və başqalarının poeziyasına çəkilmiş illüstrasiyalar daha maraqlıdır. Bu illüstrasiyalarda incə, poetik duyğularla zəngin olan qadın qəlbinin ən sirli, əsrarəngiz cəhətləri qrafika sənətinin ecazkar bədii ifadə vasitələri ilə ustalıqla açılmış, poetik irslə ahəngdar tərzdə əlaqələndirilmişdir. Rəssamın Heyran xanımın qəzəllərinə çəkdiyi illüstrasiyalar maraq doğurur. Bunlardan birində şairənin öz obrazı təsvir olunub. M.Rəhmanzadə poetik ruhlu, qadın azadlığı müjdəsini gözləyən və buna bütün varlığı ilə inanan şairəni nikbin ovqatda əks etdirmişdir. Heyran xanım oturaraq ümid dolu baxışlarını sola çevirib. Orada, pəncərənin arxasında, qamətli sərv ağaclarının arxasından boylanan səhər günəşinin nurlu şəfəqləri şairənin üzünü işıqlandırır.

Həmin seriyada çəkilmiş başqa bir illüstrasiya isə Məhsəti Gəncəvi yaradıcılığına həsr edilmişdir. "Mən də gözəl olmuşdum" adlanan bu linoqravüra Məhsətinin məşhur bir rübaisinə işarədir. Şairənin bilmədən yerə salıb sındırdığı kaşı kuzə dilə gəlib deyir:

*- Kuzə dilə gəlib dedi ki, mən də,*
*Sənin kimi idim, bu günə qaldım.*

İllüstrasiyada Məhsəti Gəncəvi gənc, gözəl qadın surətində təsvir olunub. Onun incə qaməti arxa plandakı zərif söyüdlə, çiyinlərinə tökdüyü uzun qara saçları isə söyüdün şairanə tərzdə asılı qalmış saçaqları ilə zəngin bədii bağlılığa malikdir. Şairə heyrətlə yerə düşüb parça-parça olan və gözlənilmədən dil açan saxsı qaba baxır. Öz növbəsində saxsı qabın da şikayət, sual dolu nəzərləri şairəyə dikilmişdir. M.Rəhmanzadə bu illüstrasiyada Məhsəti Gəncəvinin lirik hisslərini sənətin geniş bədii imkanları ilə ustalıqla əlaqələndirə bilmişdir.

Qadın mövzusu XX əsr Azərbaycan təsviri sənətinin əsas mövzularından biridir. Bu mövzu müasir rəssamlıqda da öz populyarlığını qoruyub saxlayıb. Bu gün həmin ənənəni gənclər davam etdirir. Klassik nəsli təmsil edən rəssamlarımız bu mövzuya müraciət edərək həm qəhrəman, həm də zərif, hissiyyatlı qadın obrazları yaratmışlar. Şübhəsiz ki, bu sırada M.Rəhmanzadənin də özünəməxsus payı vardır. Rəssamın çəkdiyi qadın obrazları Azərbaycan incəsənətində milli xarakterin və məişət lövhələrinin ən dolğun təcəssüm xüsusiyyətləri kimi yadda qalmışdır. M.Rəhmanzadənin bütün yaradıcılığı kimi, onun yaratdığı silsilə qadın obrazları da klassik bədii irsin qiymətli nümunələri cərgəsində özünə layiqli yer tutmuşdur.

**Ədəbiyyat siyahısı:**

1. Maral Rəhmanzadə. Sərvət (mətnin müəllifi X.Əsədova). Bakı, "Şərq-Qərb", 2013.- 104 s.

2. Искусство Советского Азербайджана. Москва, «Советский художник», 1970.- 207 с.

3. İlk professional azərbaycanlı qadın rəssam - Maral Rəhmanzadə https://portal.azertag.az/az/node/1195

4. Кязимова С. Нежная женщина с сильной по-мужски душой // Известия.- 2011.- 18 марта.- С.7.

5. Александрова Н. Марал Рахманзаде: волшебное творчество девушки из Мардакяна – ФОТО https://1news.az/news/20150907125842856-Zhenshcin-y-kotorye-vdokhnovlyayut-Maral-Rakhmanzade-volshebnoe-tvorchestvo-devushki-iz-Mardakyana-FOTO

**Севиндж Алиева**

## Образ женщины в творчестве народного художника Марал Рахманзаде

**Резюме**: Статья посвящена теме женского образа в творчестве видной азербайджанской художницы Марал Рахманзаде. Автор отмечает, что образ женщины занимает важное место в ее творчестве. В статье выделены ранний, средний и зрелый периоды творчества художницы, выявлены особенности эволюции и развития образа женщины в каждом из них. Образ женщины в творчестве художницы напрямую связан с темой труда, особенно в области сельского хозяйства. Для ряда композиций характерны бытовые сцены, декоративность, ярко выраженный национальный характер. Героини художницы одеты в национальные женские костюмы, изображены в процессе труда или отдыха. Многие картины созданы в черно-белой графике, но есть и цветные работы, в основном линогравюры. Интересна серия произведений, в которых запечатлены образы известных поэтесс Азербайджана – Мехсети Гянджеви, Натаван, Хейран Ханум. В основном это иллюстрации, созданные к их книгам, выпущенные в разные годы.

**Ключевые слова:** Марал Рахманзаде, образ женщины в искусстве, изобразительное искусство Азербайджана, графика, живопись, линогравюра.

**Sevinj Aliyeva**

## The image of a woman in the creativity of the people's artist Maral Rahmanzadeh

**Summary:** The article is devoted to the theme of the female image in the creativity of the prominent Azerbaijani artist Maral Rahmanzadeh. The author notes that the image of a woman occupies an important place in her work. The article highlights the early, middle and mature periods of the artist's work, identifies the features of the evolution and development of the image of a woman in each of them. The image of a woman in the artist's work is directly related to the theme of labor, especially in the field of agriculture. A number of compositions are characterized by everyday scenes, decorativeness, and a pronounced national character. The heroines of the artist are dressed in national women's costumes, are depicted in the process of work or rest. Many paintings are created in black and white graphics, but there are also colored works, mainly linocuts. Series of works, which captures the images of famous poetesses of Azerbaijan - Mehseti Ganjavi, Natavan, Heyran Khanum are interesting. These are mainly illustrations created for their books, released in different years.

**Key words**: Maral Rahmanzadeh, the image of a woman in art, the fine arts of Azerbaijan, graphics, painting, linocut.



***Şəkil 1. "Azərbaycan qadınları" silsiləsindən.
Kağız, sulu boya. 1963.***



***Şəkil 2. "Üzüm yığımı".
"Üç gül" silsiləsindən.
Kağız, linoqravüra. 70-ci illər.***

**Məqalənin redaksiyaya daxil olma tarixi: 20. 10. 2021**
**əqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**